QANUN № 01 (375), 2026, s. 10-15


**İmanlı Məhəmməd Nağı oğlu,**
Azərbaycan Dövlət Dəniz Akademiyasının Humanitar fənlər kafedrasının müəllimi, professor
Ünvan: Bakı şəhəri, AZ1000, Zərifə Əliyeva küçəsi, 18
E-mail: mahammad_imanli@ mail.ru

**UOT 341.225**

**DOI: https://doi.org/10.30546/2218-9130.041.2026.4001**

# BEYNƏLXALQ DƏNİZ HÜQUQUNUN AZƏRBAYCAN RESPUBLİKASININ QANUNVERİCİLİYİNƏ TƏSİRİ: BEYNƏLXALQ KONVENSİYALAR VƏ HÜQUQİ QAYDALAR

***Azar sųzlər:*** *beynəlxalq hüquq, konvensiya, dəniz hüququ, gəmiçilik fəaliyyəti, dəniz sərhədləri, milli hüquq, Beynəlxalq Dəniz Təşkilatı, zərərli maddələr.*

***Ключевые слова:*** *международное право, конвенция, морское право, судоходство, морские границы, национальное право, Международная морская организация, вредные вещества.*

***Keywords:*** *international law, convention, law of the sea, shipping activities, maritime boundaries, national law, International Maritime Organization, harmful substances.*

## Giriş

Beynəlxalq hüquq sistemində konvensiyalar və hüquqi qaydalar dövlətlərarası münasibətlərin tənzimlənməsində əsas normativ baza rolunu oynayır. Xüsusilə dəniz hüququ sahəsində qəbul edilmiş beynəlxalq konvensiyalar dövlətlərin dəniz məkanları üzərində suveren hüquqlarını, dəniz resurslarından istifadə qaydalarını, gəmiçilik fəaliyyətini və dəniz ətraf mühitinin qorunması ilə bağlı öhdəliklərini müəyyən edir. Bu konvensiyalar dövlətlərin razılığı əsasında qəbul olunur və ratifikasiya edildikdən sonra hüquqi qüvvəyə malik olur.

Beynəlxalq dəniz hüququna dair hüquqi normalar dəniz sərhədlərinin müəyyən edilməsi, kontinent şelfi və istisna iqtisadi zonaların hüquqi rejimi, beynəlxalq gəmiçilik azadlığı, dəniz resurslarının qorunması və təhlükəsizliyin təmin edilməsi kimi geniş spektrli məsələləri əhatə edir.

Beynəlxalq dəniz hüququnun əsas konvensiyaları və prinsipləri Azərbaycan Respublikasının milli qanunvericiliyinə əhəmiyyətli təsir göstərmişdir. UNCLOS, MARPOL və SOLAS konvensiyaları dəniz məkanlarında hüquqi rejimin müəyyən edilməsi, ekoloji təhlükəsizliyin təmin olunması və gəmiçilik təhlükəsizliyi sahəsində möhkəm hüquqi baza formalaşdırmışdır.

Bu prinsiplərin milli hüquqa inteqrasiyası Azərbaycanın Xəzər dənizi regionunda suveren hüquqlarının qorunmasına, resurslardan səmərəli

istifadəyə və beynəlxalq əməkdaşlığın inkişafına imkan yaratmışdır.

**Əsas hissə**

*1. Birləşmiş Millətlər Təşkilatının Dəniz Hüququ Konvensiyası – UNCLOS (United Nations Convention on the Law of the Sea).*

Birləşmiş Millətlər Təşkilatının 1982-ci il tarixli Dəniz Hüququ Konvensiyası (UNCLOS) beynəlxalq dəniz hüququnun fundamental və sistemləşdirilmiş mənbəyi hesab olunur. Konvensiya uzun illər davam edən beynəlxalq danışıqların nəticəsi olaraq qəbul edilmiş və dəniz hüququ sahəsində mövcud olan adət hüququ normalarını kodifikasiya etməklə yanaşı, bir sıra yeni hüquqi institutlar formalaşdırmışdır.

UNCLOS beynəlxalq dəniz hüququnun əsas və fundamental sənədidir. O, dövlətlərin dənizlər və okeanlar üzərində hüquq və vəzifələrini müəyyən edir və bu səbəbdən çox vaxt "dənizlərin konstitusiyası" adlandırılır.

Konvensiya 1982-ci ildə qəbul edilsə də, 1994-cü ildə qüvvəyə minmiş və hazırda 160-dan çox ölkə ona tərəf dövlət olmuşdur [5].

UNCLOS dənizlərdə hüquqi rejimi, sahilyanı və dənizə çıxışı olmayan dövlətlərin hüquq və vəzifələrini, dəniz sərhədlərinin delimitasiyası məsələlərini, həmçinin dəniz resurslarının istifadəsini kompleks şəkildə tənzimləyir. Konvensiyanın beynəlxalq dəniz hüququnun "konstitusiyası" kimi qiymətləndirilməsi onun universallığı və normativ əhatə dairəsinin genişliyi ilə izah olunur.

UNCLOS-un əsas müddəalarına görə:

- dövlətlərin ərazi suları maksimum 12 dəniz mili həcmində müəyyən edilir və bu ərazilərdə dövlətin tam suverenliyi tanınır;

- sahilyanı dövlətlər üçün 200 dəniz milinədək istisna iqtisadi zonaların yaradılması hüququ tanınır və bu zonalarda təbii resursların kəşfiyyatı, istismarı və idarə olunması sahilyanı dövlətin yurisdiksiyasına aid edilir;

- kontinental şelf üzərində yeraltı və yerüstü təbii resurslardan istifadə sahilyanı dövlətlərin suveren hüquqları çərçivəsində həyata keçirilir;

- beynəlxalq suların azad istifadəsi, gəmiçilik, uçuş və kommunikasiya azadlığı beynəlxalq hüququn əsas prinsiplərindən biri kimi təsbit olunur;

- dəniz mühitinin qorunması və dəniz resurslarının davamlı istifadəsi dövlətlərin ümumi beynəlxalq öhdəliyi kimi müəyyən edilir.

Konvensiyada dəniz hüququ ilə bağlı mübahisələrin həlli üçün institusional mexanizmlər də nəzərdə tutulmuşdur. Xüsusilə Beynəlxalq Dəniz Tribunalının yaradılması dövlətlər arasında yaranan mübahisələrin hüquqi və sülh yolu ilə həllinə xidmət edir. Bu mexanizmlər milli qanunvericilik sistemlərinin beynəlxalq hüquq normalarına uyğunlaşdırılmasını stimullaşdırır və hüquqi sabitliyin təmin edilməsinə töhfə verir [4].

Azərbaycan Respublikasının milli dəniz hüququnun formalaşmasında UNCLOS prinsipləri dolayı və birbaşa təsir göstərmişdir. Hərçənd ki, Xəzər dənizi xüsusi hüquqi statusa malikdir, UNCLOS-da təsbit edilmiş sahilyanı dövlət prinsipləri, resurslardan səmərəli istifadə və dəniz mühitinin qorunması ilə bağlı normalar Azərbaycan qanunvericiliyində nəzərə alınmışdır. Bu baxımdan UNCLOS beynəlxalq dəniz hüququnun ümumi prinsiplərinin milli hüquqa inteqrasiyası üçün mühüm metodoloji və normativ baza rolunu oynayır.

*2. Gəmilərdən dənizlərin çirkləndirilməsinin qarşısının alınması haqqında Beynəlxalq Konvensiya – MARPOL (International Convention for the Prevention of Pollution from Ships).*

MARPOL beynəlxalq dəniz hüququ çərçivəsində gəmiçilik fəaliyyəti nəticəsində dəniz mühitinin çirklənməsinin qarşısının alınmasını hədəfləyən əsas hüquqi sənəddir və dövlətlər üçün məcburi ekoloji standartlar müəyyən edir. Sadə dillə desək, Konvensiya dəniz nəqliyyatı zamanı neft, kimyəvi maddələr, çirkli sular və digər təhlükəli tullantıların dənizə axıdılmasını hüquqi və texniki normalarla tənzimləyir.

Konvensiya 1973-cü ildə qəbul edilib, 1978-ci il Protokolu ilə tamamlanıb, idarəedici qurumu – Beynəlxalq Dəniz Təşkilatıdır (IMO) [6].

Konvensiya gəmilərdən dənizə atılan zərərli maddələrin qarşısını almaq üçün texniki və hüquqi qaydalar müəyyən edir və 6 əsas əlavədən ibarətdir:

1. Əlavə I – Neftlə çirklənmə;
2. Əlavə II – Zərərli maye kimyəvi maddələr;
3. Əlavə III – Zərərli maddələrin qablaşdırılmış formada daşınması;
4. Əlavə IV – Çirkab suları;
5. Əlavə V – Zibil və tullantılar;
6. Əlavə VI – Hava çirklənməsi (kükürd, azot oksidləri və s.).

MARPOL Konvensiyası çərçivəsində:

- dəniz mühitinin çirklənməsinin qarşısının alınması üzrə beynəlxalq standartlar müəyyən edilir;
- dövlətlərdən milli qanunvericilik səviyyəsində inzibati və cəza mexanizmlərinin yaradılması tələb olunur;
- monitorinq, yoxlama və hesabat sistemlərinin tətbiqi nəzərdə tutulur;
- beynəlxalq əməkdaşlıq və məlumat mübadiləsi təşviq edilir.

Bu konvensiya milli hüquq sistemlərində ətraf mühitin qorunması sahəsində normativ hüquqi bazanın möhkəmləndirilməsinə xidmət edir və dövlətlərin ekoloji məsuliyyətini artırır.

Azərbaycan üçün MARPOL xüsusilə Xəzər dənizində neft-qaz hasilatı və nəqli, liman fəaliyyəti və gəmiçilik baxımından mühüm əhəmiyyət daşıyır. Konvensiyanın prinsipləri milli ekoloji qanunvericilikdə və dəniz təhlükəsizliyi normalarında əsas istinad mənbəyi kimi istifadə olunur.

*3. Dənizdə insan həyatının təhlükəsizliyi haqqında Beynəlxalq Konvensiya – SOLAS (International Convention for the Safety of Life at Sea).*

Beynəlxalq dəniz hüququnda gəmiçilik fəaliyyəti zamanı insan həyatının təhlükəsizliyinin təmin edilməsinə yönəlmiş əsas hüquqi sənəddir və gəmilər üçün məcburi təhlükəsizlik standartları bəyan edən SOLAS Konvensiyası beynəlxalq gəmiçilik hüququnun əsas sənədlərindən biri olmaqla gəmilərin texniki avadanlıqları, konstruksiyası, yanğın təhlükəsizliyi, naviqasiya sistemləri və gəmi heyətinin peşə hazırlığı ilə bağlı minimum beynəlxalq tələbləri müəyyən edir.

Konvensiya 1974-cü ildə qəbul edilib, davamlı olaraq yenilənir və təkmilləşdirilir, idarəedici qurumu – Beynəlxalq Dəniz Təşkilatıdır (IMO).

SOLAS Konvensiyası aşağıdakı əsas sahələri hüquqi çərçivəyə salır:

- gəmi konstruksiyası və texniki təhlükəsizlik;
- yanğın təhlükəsizliyi sistemləri;
- naviqasiya və rabitə avadanlıqları;
- gəmi heyətinin hazırlanması və vəzifələri;
- xilasetmə vasitələri və təxliyə prosedurları;
- yoxlama, sertifikatlaşdırma və nəzarət mexanizmləri.

Konvensiyanın əsas məqsədləri aşağıdakılardır:

- dəniz qəzalarının qarşısının alınması;
- sərnişin və ekipajın həyatının qorunması;
- beynəlxalq gəmiçilikdə vahid təhlükəsizlik standartlarının tətbiqi;
- risklərin minimuma endirilməsi və məsuliyyət mexanizmlərinin gücləndirilməsi.

Hüquqi mexanizmlə bağlı dövlətlərdən tələb olunur ki:

- konvensiya müddəalarını milli qanunvericiliyə inteqrasiya etsinlər;
- gəmilərin texniki uyğunluğunu yoxlasınlar;
- beynəlxalq sertifikatlar versinlər;
- təhlükəsizlik qaydalarının pozulmasına görə hüquqi məsuliyyət tətbiq etsinlər.

Beləliklə, SOLAS Konvensiyasına əsasən:

- gəmilərin təhlükəsizlik standartlarına uyğunluğu təmin edilir;
- sertifikatlaşdırma və texniki baxış prosedurları hüquqi mexanizmə salınır;
- fövqəladə hallarda təxliyə və təhlükəsizlik tədbirləri normativ şəkildə tənzimlənir;
- beynəlxalq gəmiçilikdə risklərin minimuma endirilməsi məqsəd qoyulur.

Azərbaycan üçün SOLAS Konvensiyası Xəzər dənizində sərnişin və yük daşımalarının təhlükəsizliyi, liman infrastrukturu və gəmiçilik nəzarəti baxımından mühüm əhəmiyyət kəsb edir. Konvensiyanın prinsipləri milli dəniz nəqliyyatı qanunvericiliyində və təhlükəsizlik standartlarında əsas hüquqi istinad rolunu oynayır.

Bu konvensiya milli qanunvericilikdə gəmiçilik təhlükəsizliyi sahəsində hüquqi standartların formalaşmasına əsas yaratmışdır [7].

**Beynəlxalq dəniz hüququnun prinsiplərinin Azərbaycan Respublikasının qanunvericiliyinə təsiri**

Azərbaycan Respublikasının dəniz hüququ sistemi, ilk növbədə, Xəzər dənizi kontekstində beynəlxalq dəniz hüququnun ümumi prinsiplərinə əsaslanır. Xəzər dənizi beynəlxalq okean və dənizlərdən fərqli olaraq xüsusi hüquqi statusa malik olsa da, sahilyanı dövlətlərin suveren hüquqları, resurslardan səmərəli istifadə, ekoloji təhlükəsizlik və dəniz fəaliyyətinin hüquqi tənzimlənməsi baxımından beynəlxalq dəniz hüququnun fundamental yanaşmaları burada da tətbiq olunur.

Azərbaycan üçün Xəzər dənizi strateji əhəmiyyət daşıyır. Bu hövzə ölkənin enerji təhlükəsizliyi, iqtisadi inkişafı, regional nəqliyyat-kommunikasiya layihələri və ekoloji tarazlığın qorunması baxımından əsas rol oynayır. Məhz bu səbəbdən beynəlxalq dəniz hüququnun prinsipləri Azərbaycanın milli qanunvericiliyinə selektiv və məqsədyönlü şəkildə inteqrasiya edilmişdir [3].

UNCLOS, MARPOL və SOLAS kimi beynəlxalq konvensiyalar Azərbaycan Respublikasının birbaşa və dolayı hüquqi öhdəliklərini formalaşdırmaqla yanaşı, milli normativ aktların hazırlanmasında metodoloji əsas rolunu oynayır.

Qeyd olunmuş beynəlxalq sənədlərdə təsbit olunmuş prinsiplər Azərbaycan hüququnda aşağıdakı istiqamətlərdə öz əksini tapmışdır:

- sahilyanı dövlətin suveren hüquqlarının və yurisdiksiyasının müəyyən edilməsi;
- dəniz resurslarının, xüsusilə neft və qaz ehtiyatlarının istismarı zamanı beynəlxalq hüquqa uyğun müqavilə mexanizmlərinin tətbiqi;
- dəniz mühitinin mühafizəsi və ekoloji risklərin minimuma endirilməsi;
- gəmiçilik fəaliyyətinin təhlükəsiz və davamlı şəkildə həyata keçirilməsi;
- regional əməkdaşlıq və mübahisələrin hüquqi mexanizmlərlə həlli.

Xüsusilə, 12 avqust 2018-ci ildə Aktau şəhərində (Qazaxıstan) Azərbaycan, Rusiya, Qazaxıstan, Türkmənistan və İran tərəfindən imzalanmış, Regional beynəlxalq konvensiya olan "Xəzər dənizinin hüquqi statusu haqqında" Konvensiya beynəlxalq dəniz hüququ prinsiplərinin regional səviyyədə tətbiqinin bariz nümunəsidir. Sözügedən Konvensiya Xəzərin sahilyanı dövlətləri arasında dəniz məkanının bölüşdürülməsi, suveren hüquqların həyata keçirilməsi və təhlükəsizlik məsələlərinin hüquqi əsaslarını müəyyən etmişdir. Bu sənəd Azərbaycan Respublikasının milli qanunvericiliyində beynəlxalq hüququn prioritetliyini və regional hüquqi harmonizasiyanı gücləndirmişdir.

Aktau Konvensiyasının müddəaları Xəzər dənizinin xüsusi hüquqi statusunun müəyyən edilməsi, dəniz məkanının bölgüsü, su səthinin hüquqi rejimi, təhlükəsizlik prinsipi və ekoloji mühafizə ilə bağlı məsələləri tənzimləməyə yönəlmişdir.

Konvensiya Xəzəri nə beynəlxalq dəniz, nə də adi daxili su hövzəsi kimi tanımış, "Xüsusi hüquqi statusa malik qapalı su hövzəsi" kimi müəyyən etmişdir [1].

Dəniz məkanının bölgüsü aparılarkən müəyyən olunmuşdur ki, 15 dəniz mili ərazi suları, əlavə 10 dəniz mili balıqçılıq zonası olmalı, lakin dənizin dibi və təki ikitərəfli və çoxtərəfli razılaşmalar əsasında bölüşdürülməlidir. Bu yanaşma enerji resurslarının (neft, qaz) istismarına hüquqi əsas yaratmışdır.

Su səthinin hüquqi rejimi müəyyən edilərək ümumi istifadədə saxlanılmış, gəmiçiliyin yalnız

sahilyanı dövlətlərə məxsus olması və üçüncü dövlətlərin hərbi mövcudluğunun (xarici hərbi bazalar və qoşunlar) qadağan olunması bəyan edilmişdir. Bu da, Xəzərin regional təhlükəsizlik zonasına çevrilməsini təmin etməyə yönəlmişdir.

Ona görə, bu prinsip xüsusilə Azərbaycan üçün strateji əhəmiyyət daşıyır.

Ekoloji mühafizə sahəsində tərəf dövlətlər öhdəlik götürürmüşlər ki, dəniz mühitinin çirklənməsinin qarşısını alsınlar, ekosistemin qorunması üçün birgə tədbirlər görsünlər və beynəlxalq ekoloji standartlara uyğun fəaliyyət göstərsinlər. Bu hissə məhz MARPOL prinsipləri ilə məntiqi uyğunluq təşkil edir.

Konvensiya Azərbaycan üçün əhəmiyyəti ondan ibarətdir ki, ölkəmiz Xəzərdə suveren hüquqların beynəlxalq səviyyədə tanınmasına, enerji layihələrinin (neft-qaz) hüquqi legitimliyinə, gəmiçilik və təhlükəsizlik sahəsində stabil hüquqi rejimin bərqərar olunmasına nail ola bilmişdir.

Yekunda qeyd etmək olar ki, UNCLOS prinsiplərinin regional səviyyədə adaptasiyası nəticəsində ərsəyə gələn 2018-ci il "Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya" Xəzər hövzəsində sahilyanı dövlətlərin suveren hüquqlarını, təhlükəsizlik maraqlarını və resurslardan istifadə qaydalarını tənzimləyən, beynəlxalq dəniz hüququ prinsiplərinin regional səviyyədə adaptasiyasını əks etdirən əsas hüquqi sənəddir [2].

Beləliklə, beynəlxalq dəniz hüququnun prinsipləri Azərbaycanın milli dəniz hüququ sistemində normativ, institusional və funksional səviyyələrdə öz əksini tapmış, ölkənin dəniz siyasətinin hüquqi əsaslarını formalaşdırmışdır.

**Nəticə**

Azərbaycan Respublikasının milli dəniz hüququ beynəlxalq dəniz hüququnun əsas prinsipləri nəzərə alınmaqla formalaşdırılmışdır.

Bu hüquqi çərçivə aşağıdakı əsas sahələri əhatə edir:

- Xəzər dənizində suveren hüquqların və yurisdiksiyanın müəyyən edilməsi;
- balıqçılıq və neft-qaz ehtiyatlarının istismarı;
- dəniz ətraf mühitinin qorunması və tullantıların idarə olunması;
- dəniz nəqliyyatının və gəmiçilik fəaliyyətinin təhlükəsizliyi;
- dövlət sərhədlərinin və milli maraqların qorunması.

Bu sahədə əsas normativ hüquqi aktlara "Dəniz liimanları haqqında" Azərbaycan Respublikasının 18 aprel 2014-cü il tarixli 945-IVQ nömrəli Qanunu, Xəzər dənizi üzrə ikitərəfli və çoxtərəfli sazişlər, habelə ekoloji və dəniz nəqliyyatı qanunvericiliyi daxildir. Sözügedən normativ hüquqi baza beynəlxalq konvensiyaların müddəalarına uyğun olaraq hazırlanmış və milli dəniz hüququnun inkişafına zəmin yaratmışdır.

**İstifadə edilmiş ədəbiyyat siyahısı:**


1. "Xəzər dənizinin hüquqi statusu haqqında" Konvensiyanın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının 12 fevral 2019-cu il tarixli 1488-VQ nömrəli Qanunu: [Elektron resurs]/URL: https://e-qanun.az/framework/41551
2. Churchill, R., & Lowe, A. (1999). The Law of the Sea. Manchester: Manchester University Press.
3. Fitzmaurice, M. (2010). Marine Environment and Safety Law. Oxford: Oxford University Press.
4. Brownlie, I. (2008). Principles of Public International Law. Oxford: Oxford University Press.
5. United Nations. (1982). United Nations Convention on the Law of the Sea (UNCLOS). New York: UN.
6. International Maritime Organization. (1973/78). MARPOL Convention. London: IMO.
7. International Maritime Organization. (1974). SOLAS Convention. London: IMO.

**Иманлы Мухаммад Наги оглу,**
преподаватель кафедры гуманитарных наук
Азербайджанской государственной морской академии, профессор

## ВЛИЯНИЕ МЕЖДУНАРОДНОГО МОРСКОГО ПРАВА НА ЗАКОНАДАТЕЛЬСТВО АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ: МЕЖДУНАРОДНЫЕ КОНВЕНЦИИ И ПРАВОВЫЕ НОРМЫ

### РЕЗЮМЕ

В данной статье исследуются принципы международного морского права и их влияние на национальное законодательство Азербайджанской Республики. Статья посвящена правовой природе и применению международных конвенций, в частности Конвенции ООН по морскому праву (UNCLOS), MARPOL и SOLAS. Анализируются нормативная база международного морского права, суверенные права государств, использование морских ресурсов, безопасность судоходства и охрана окружающей среды. В статье определяются и обосновываются вопросы защиты суверенных прав Азербайджана в Каспийском регионе и эффективного управления морскими ресурсами. Делается вывод о том, что интеграция международных конвенций в национальное законодательство повышает эффективность морской политики страны и способствует развитию международного сотрудничества.

**Imanli Mahammad Naghi,**
Professor, Lecturer, Department of Humanities,
Azerbaijan State Maritime Academy

## THE INFLUENCE OF INTERNATIONAL MARITIME LAW ON THE LEGISLATION OF THE REPUBLIC OF AZERBAIJAN: INTERNATIONAL CONVENTIONS AND LEGAL NORMS

### SUMMARY

This article examines the principles of international maritime law and their impact on the national legislation of the Republic of Azerbaijan. The study addresses the legal nature and application of international conventions, particularly the United Nations Convention on the Law of the Sea (UNCLOS), MARPOL, and SOLAS. It also analyzes the normative framework of international maritime law, states' sovereign rights, the use of marine resources, shipping safety, and environmental protection. The article identifies and substantiates issues related to Azerbaijan's sovereign rights in the Caspian region and the efficient management of maritime resources. It concludes that the integration of international conventions into national legislation enhances the effectiveness of the country's maritime policy and promotes international cooperation.

**Redaksiyaya daxilolma tarixi: 15.01.2026**
**Təkrar işlənməyə göndərilmə tarixi: göndərilməyib**
**Çapa qəbul olunma tarixi: 20.01.2026**